# Azərbaycanın özü qədər əbədi



Ulu öndər Heydər Əliyevin Azərbaycanı dirçəliş yoluna çıxaran inkişaf strategiyasının tarixi 1969-cu ildən başlayıb. 1969-cu il iyunun 14-ü tarixi dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah mərhələsinin başlanğıcını qoyub. Heydər Əliyevin rəhbərliyi illərində həyata keçirilən işlər Azərbaycanda sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa yol açdı. Ümummilli lider Heydər Əliyevin ilk rəhbərliyi dövründə Azərbaycan bütün sahələr üzrə sözün əsl mənasında öz intibah dövrünü yaşayıb. Buna görə də həmin dövrdən Azərbaycanın müasir tarixinin bütün mərhələləri Heydər Əliyevin adı ilə bağlıdır.

Təcrübəli siyasətçi, bacarıqlı dövlət xadimi ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə gəlişi ölkədəki hərc-mərcliyə, vətəndaş qarşıdurmasına son qoydu, ölkəmizin parçalanma təhlükəsi aradan qaldırıldı, dövlət müstəqilliyimiz qorunub saxlanıldı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkəmizdə həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahəsi inkişaf edərək Azərbaycanı digər ölkələr sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Heydər Əliyevin atdığı qətiyyətli addım sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Ümummilli lider müasir Azərbaycan Respublikasında aparılan bütün islahatların təşəbbüskarı və müəllifidir. Həmin islahatlar bu gün də ulu öndərin varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Məhz ulu öndərin müəyyənləşdirdiyi, İlham Əliyevin davam etdirdiyi siyasətin nəticəsidir ki, bu gün dövlətimiz öz tarixinin yeni yüksəliş salnaməsini yaradır. 44 günlük Vətən müharibəsində qazanılan qələbə bu salnamənin parlaq səhifəsidir.

"Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin də məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik. Bu, böyük qələbədir. Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, azərbaycanlılar!"

Bu cümlələri Prezident İlham Əliyev 2020-ci il 8 noyabr tarixində Şuşanın işğaldan azad olunduğu xəbərini verərkən söyləmişdi. Bəli, ulu öndərin ruhu şaddır. Heydər Əliyevin fəaliyyəti mümkünsüzü mümkünə çevirən, münaqişədən intibaha keçidi təmin edən, xalqın və dövlətin əsrlərboyu inkişafına təkan verəcək proqramları hazırlayan məktəbdir!

İlahə RƏHİMOVA,
"Qəbələ"

## Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü qeyd edilmişdir



10 may 2021-ci il tarixdə Qəbələ rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərliyi və rayon ictimayyətinin nümayəndələri ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində yerləşən parkda ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək böyük hörmət və ehtiramlarını bil-




dirmişlər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü qeyd edilmişdir.

## Şəhidlərin doğum günü münasibətilə xatirəsi anılmışdır





Qəbələ şəhər sakinləri şəhid Mustafayev Elməddin Məhəmməd oğlunun may ayının 1-i doğum günüdür. Elməddin Mustafayev 5 iyul 2019-cu ildə Həqiqi Hərbi Xidmətə çağrılmışdır.

Müharibənin ilk günlərindən döyüşlərə qatılan Elməddin Mustafayev 10 oktyabrda Fizuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Babayev Ağaşirin Firuz oğlu 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollanmış Ağcabədi rayonunda N saylı hərbi hissədə xidmət etmişdir. 2020-ci il sentyabrın 27-i başlanan II Qarabağ müharibəsində iştirak etmiş, noyabrın 3-də Xocavənd uğrunda gedən döyüşlərdə aldığı qəlpə yarasından şəhid olmuşdur. 16 may şəhidin doğum günüdür.

Rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, Qızıl Aypara Cəmiyyətinin, rayon şöbəsinin əməkdaşları, şəhidlərin təhsil aldığı məktəb kollektivləri və ailə üzvləri şəhidlərin məzarlarını ziyarət etmiş, xatirələrini böyük ehtiramla anaraq, məzarları üzərinə gül dəstələri qoymuş, ruhlarına dualar oxunmuşdur. Şəhidlərin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

# Şəhid baharı...

Gecənin sakitliyi gecə böcəklərinin bahar qoxusu ilə, bahar coşqusu ilə səs-səsə verməsi ilə pozular. Xoruzlar qorxa-qorxa banlar, quşların səsi avaz-avaz eşidilər, dan yeri sökülməyə başlar. Qaranlıqlar heç çəkilmək istəməz. Elə hər gün, gün başlanandan qaranlıqların göy qübbəsində gizlənmək xisləti olsa da, təbiətin bu qanununa rəğmən onlar çox ağır-ağır, zorla çəkilər. Əgər işığın sürəti olmasa, qaranlıqlar "yarılmaz". Hərdən düşünürəm ki, Allahın qüdrətinə bax. Gecəgündüzü yaradıb və həyat təməlini elə başlayıb. Qaranlıqlar işıq dünyasının vahiməsi olsa da, onun da öz tərzi, öz aidiyyətləri var. Qaranlıqlar olmasa, sabahlar olmaz. Qaranlıqlar olmasa, yuxular da olmaz. İnsan beyni, cismi, mənəviyyatı dincəlməz. Təki qəflət yuxusu olmaya. Qəflət yuxusu çox ağırdır. Ondan ayılmaq bəşəri məna kəsb edər...

Qaranlıqlar harada məskən salır deyə heç düşünmüsünüzmü? Haraya sığışır onlar?! Əlbəttə göy qübbəsinə - deyə düşünürəm. Buludlara çöküb, onların rəngini qarsayaraq - qara rəngə boyayaraq göy qübbəsində gizlənərlər. Elə gizlənərlər ki, günəş şüaları onları əritməsin. Ancaq hərdən düşünürəm ki, bu qaranlıqlar dan yeri söküldükcə, işıq seli irəlilədikcə vahimə içərisində qaçarkən dağlırlar - buludların canına çökərkən də bəzən parçalanırlar. "İmmuniteti" güclü olan canlıların canına dağılırlar. Sonra da yer üzündə xəbislik, riyakarlıq, vəhşilik, nankorluq, vandallıq, vulqarlıq yaranır. Qaranlıqların qara bulud kimi canlıların canına çökməsi, bir ruh kimi cisminə daxil olması bu mənfi xüsusiyyətləri yaradır. Və bu xüsusiyyətlər çox çətinliklə təmizlənər canlıların cismindən. Bəzən də təmizlənməz cismən, cismi ölən sonra ruhla təmizlənər, o dünya qəbul etsin deyə. Bu qaranlıq buludların dağınıqlı tör-töküntüləri canlı aləmdə yaşam mübarizəsi yaradar. Müharibələr, nankorluqlar, vulqarizm, vəhşilik, qəddarlıq və s. yaranar...

Nə yaxşı ki, dan yeri saatından asılı olmayaraq, heç bir gücə boyun əyməyərək həmişə eyni qayda ilə eyni vaxtda sökülür. O söküldükcə xoruzların banı, quşların civiltisi qaranlıqları qovar, günəş şəfəqlərini qarşılamaq üçün təbiətin ecazkar gözəlliyi - güllər açılar, tumurcuqlar yarpağa dönər, qaranlıqlar bəlkə də gün işığından sayrışaraq qaçışan ulduzların yanında qeybə çəkilərlər o işığın xofundan. Səhər açılanda, ələlxüsus yaz səhəri açılarkən bəzən duman bürüyər dağları, dərələri, çayları, dənizləri, gölləri, çölləri. Bu ağ dumanlar bahar günəşinin elçiləridir. Duman çəkildikcə günəş dağların arxasından gülümsər yer üzünə. Günəşi isə quşların cəh-cəhi, qeyblərdə oxuyan gözəgörünməz quşun "rəsmi - marş tipli mahnısı" qarşılar. Güllər gözəlliyi ilə, heyvanlar təbiət qoynuna tələsən coşqusu ilə, insanlar yeni günə başlama sevinci ilə günəşi qarşılarlar. Bahar səhəri o qədər gözəl ki... Xəfif əsən küləklər gülləri titrətdikcə güllər nazlanar... Ağaclar hələ tam yarpaq açmasa belə tumurcuq halı ilə gözəllik bəxş edərlər təbiətə. Qönçələrsə.... qönçələrsə... gündən-günə böyüyər, ana bətnindəki körpə kimi... Günəşə, gün işığına həsrət...

(Ardı 6-cı səhifədə).